**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 2, maddə 211, 5, maddə 658; 2016, 8, maddə 1456, 9, maddə 1585; 2017, 4, maddə 620) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bəndə "silahlı birləşmələrə" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)" sözləri əlavə edilsin.

2. 2.1-ci və 2.2-ci bəndlərə "silahlı birləşmələrdə" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri əlavə edilsin.

3. 2.8-ci, 3.12-ci və 3.13-cü bəndlərə "silahlı birləşmələr" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)" sözləri əlavə edilsin.

4. 3.1-ci bənddə "və" sözü (birinci halda) vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə" sözlərindən sonra "və Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna" sözləri əlavə edilsin.

5. Qaydaya 1 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Bağlaşma" üzrə:

5.1. adına, 1.1.1-ci yarımbəndinə və 6.1-ci bəndinə "silahlı birləşmələrdə" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri əlavə edilsin;

5.2. 1.1-ci bəndinə "silahlı birləşmələrə" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)" sözləri əlavə edilsin;

5.3. 1.2.1-ci yarımbəndinə "silahlı birləşmələrin" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların)" sözləri əlavə edilsin.

6. Qaydaya 2 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Öhdəlik"in adına və "a" bəndinə "silahlı birləşmələrdə" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2021-ci il
418